*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2019, № 1*
*Səhifə: 100-103* *ISSN: 2663-2926*

**UOT:** 821.512.162.09 Dilarə Əliyeva*

# ANAR YARADICILIĞI EKZİSTENSİALİZM KONTEKSTİNDƏ

**Açar sözlər:** müharibə, şüur axını, modernist nəsr, sürrealizm, simvol
**Key words:** war, stream of consciousness, modernist prose, surrealizm, symbol
**Ключевые слова:** война, поток сознания, модернистская проза, сюрреализм, символ

Ədəbiyyatda ekzistensializm müxtəlif gərgin vəziyyətlərlə qarşı-qarşıya qalan, düşdüyü situasiyada gücünü, qabiliyyət və düşüncəsini əks etdirən insanın fərdiyyəti və mövcudluğunun mahiyyəti haqda fəlsəfi baxışı bədii üsullarla inikas etdirən ədəbi cərəyandır. Bu vəziyyətlərin formalaşmasına təsir edən amillərdən biri müharibədir. Həyat üçün təhlükəli xarakter daşıyan bu problem sənətkara ekzistensial situasiya yaratmaq üçün həyati material verir.

Ekzistensializmin obyektiv tarixi səbəblər üzündən Azərbaycan ədəbiyyatşünaslığında ədəbi cərəyan kimi lazımi səviyyədə araşdırılmamasına baxmayaraq, Anar, Elçin, Mövlud Süleymanlı və hətta İlyas Əfəndiyev kimi yazıçıların yaradıcılığında bu və ya digər səviyyədə (elementlərin dominantlığı və ya ikinci planda olması ilə) özünü göstərə bilmişdir. Bu yazıçılar sosrealizmdən keçid dövrünü yaşamış, eyni zamanda Qarabağ müharibəsinin sağalmaz yaralarının canlı şahidi olmuşdular. Sovet imperiyasının dağılması, 20 Yanvar faciəsi, Qarabağ müharibəsi ədəbiyyatımızda modernist meyillərin inkişafına təkan vermişdir. Nəsrdə müharibə mövzusunda yazan çox olsa da, lakin reallıqdan kənar, şüur altında müharibənin ağrı-acılarını insan mənəviyyatına, onun həyat ritminə təsiri məhz ekzistensial nəsrdə özünü göstərmişdir. Müharibənin getdiyi ərəfədə yazılan, döyüş səhnələrindən, verdiyimiz qurbanlardan bəhs edən əsərlərdə əsasən çağırış motivi daha çox hiss olunur. Lakin müharibə bitdikdən sonra yazılan əsərlərdə müharibənin nəticələri, törətdiyi fəsadlar öz əksini tapır. Bu nəsr dərin psixologizmi ilə fərqlənir.

Latın dilindən tərcümədə "eksistentia" sözü varlıq, mövcudluq mənasını verdiyindən, ekzistensializmə bir çox hallarda "mövcudluq fəlsəfəsi" deyirlər [1, s.250]. Ekzistensializmin əsas prinsipi: Mən kiməm və bir fərd olaraq var olmağımın mənası nədir? Ekzistensialistlərin əsas amalı insanlığı gələcək fəlakətlərin məngənəsindən xilas etmək idi. Bu yazıçılara görə insan ruhən, mənən rahat olmalıdır.

Təsadüfi deyil ki, müharibələr, aclıq, sosial kataklizmlərin XX əsrdə meydana gəlməsi ekzistensializmin ədəbiyyatda, əsasən nəsr və dramaturgiyada əksinə gətirib çıxarmışdı. XX əsrin əvvəllərində dünya ədəbiyyatında yayılmağa başlayan ekzistensialist meyillər II Dünya müharibəsindən sonra daha da inkişaf etmiş və 60-cı illərdə yeni mərhələsini yaşamışdır. 60-cı illər mərhələsinin spesifik cəhətləri Azərbaycan nəsrində, xüsusən Anarın yaradıcılığında daha çox diqqəti cəlb edir.

Anar yaradıcılığında müharibənin gözlə görünən fəsadlarından daha çox gözlə görünməyən, uzun müddət hiss olunmayan, lakin insanın daxili aləmini darmadağın edən, psixologiyasına ağır zərbələr vuran mətləblərə toxunulur. Həmin bu mətləblər idi ki, "Qırmızı limuzin"də O-nun, "Vahimə"də Orucun, "Otel otağı"nda Kərim Əsgəroğlunun əvvəlcə daxili, mənəviyyatını, ruhunu öldürdü daha sonra isə onların hər birinin müəmmalı ölümünə səbəb oldu. Hər üç əsərin əvvəlində bu obrazların yaşadıqları mənəvi xaos sonluğu müəyyən qədər oxucuya bildirir. Onların ölümü bir

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. E-mail: aliyeva.dilara724@yandex.ru

az müəmmalı, bir az qorxulu, bir az qəfil olsa da, sanki oxucu bu sonluğu gözləyirmiş kimi qarşılayır. Çünki, bu mənəvi sarsıntıları yaşayan, anlaşılmazlıqlara düçar olan insanların taleyi anlaşıqlı sonluğu hazırlamır.

"Biz Anar yaradıcılığında Zaman münasibətlərini daim realist zamanın ekzistensial zamana nisbəti şəklində, ona qənşər, ona adlamasında görmüşük. "Otel otağı"nda realist zaman əhəmiyyətini itirir, varsa da varlığın sxemi kimi, düşüncə axarının faktları, rəqəmləri kimi qalır, zəifliyin əlamətidir, metaforik qatda məkan obrazı kimi zaman da ekzistensial hüdudlarına varmış. Belə ki, "yeni mərhələ"də Anarın nəsrində ölüm motivinin təbii bir hal aldığını sezmişlər" [2, s.7].

Adıçəkilən əsərlərin hər birinin bu və ya digər dərəcədə müharibə mövzusu ilə bağlılığını görmək olar. Ekzistensializm əsas cərəyan kimi emosional coşğunluqdan əzilən, ehtiraslardan parçalanan dünyanın şəxsiyyətini irəli çəkir. Ekzistensializm pessimist dünyagörüşü kimi meydana gəlmiş və məsələni belə qoymuşdur: Tarixi fəlakətlər qarşısında liberal, mütərəqqi ideyalarını itirmiş insan necə yaşamalıdır? Ekzistensialistlər üçün cəmiyyət, insanların həyatı başdan-başa "anlaşılmazlıq"dan ibarətdir. İnsanlar arasında sevgi və bağlılıq itib, ancaq ehtiras var, adamlar arasında bütün insani münasibətlər qırılıb. Kişilər və qadınlar prinsipial şəkildə özlərinə qapanıblar, qarşılıqlı anlaşılmamazlığa məhkumdular, bir-biri ilə əlaqə saxlamırlar. İnsanların ünsiyyəti ancaq səthidir və qəlbin dərinliklərinə toxunmur. Dünya insanının ekzistensialist modeli belədir.

Anar da yaradıcılığında ekzistensialist insan modelini özunəməxsus şəkildə, bütün xırdalıqları ilə əks etdirmişdir. "Vahimə" hekayəsində Oruc həkim də mənəvi sarsıntılara düçar olmuş bir insandır. Lakin ona elə gəlir ki, həyatında hər şey qaydasındadır, heç bir problemi, çətinliyi yoxdur. Ətrafında baş verən hadisələrdən xəbərsiz kimi yaşamaq təbii ki, uzun müddət davam edə bilməz. Hələ üstəlik Oruc tanınmış psixiatr idi. Hər gün onlarla xəstə qəbul edirdi. Yanına gələn xəstələr müharibənin ağır fəsadlarından təsirlənərək bura gəlib çıxmışdılar.

İctimai həyatın təlatümləri – mitinqlər, tətillər, Qarabağ davası, hakimiyyət çəkişmələri və hakimiyyət dəyişmələri hətta Orucun peşəsinə də təsir göstərirdi. Ruhi xəstəliklər artmış, beyin sarsıntıları çoxalmış, yeni maniyalar və fobiyalar meydana çıxmışdır. Qohumların, ailə üzvlərinin müxtəlif bəhanələrlə tovlayıb Orucun qəbuluna gətirdiyi adamların azı əlli faizi Qarabağ problemi ucbatından xəstəlik tapmışdılar. Çoxu "mənə imkan verin, iki saata Qarabağ məsələsini həll edim"-deyirdi. 20 dəqiqə deyən, ya iyirmi gün istəyənlər də olurdu, amma məsələnin mahiyyəti dəyişmirdi. Bütün günü bu proseslərin içində keçən insanın işdən sonra heç nə olmamış kimi davranması, əyləncə məclislərinə getməyi olduqca təəccüblü və düşündürücü idi. Amma sonda bəlli olur ki, Oruc nə qədər laqeyd, soyuqqanlı olursa-olsun, ictimai reallığın hər bir insana vurduğu psixoloji zərbələrə dözə bilmir.

Həqiqətən də, insan yalnız bir aləmə qısılıb, cəmiyyətdən uzaq yaşaya bilməz. Cəmiyyətdəki hadisələr ağrılı olduğu zaman insanın içindəki firavanlığı qorumaq üçün cəmiyyətdən uzaq durması, dünyadan təcrid olması necə partlayışa səbəb olursa, içindəki ağrıları, təlatümləri özünə qapanaraq yaşamaq elə partlayışa səbəb olur. Anarın digər əsəri "Otel otağı"ndakı Kərim Əsgəroğlu da bu ağrıların, bu təlatümlərin qurbanı olur.

"Otel otağı"nın əsas qəhrəmanı filologiya elmləri namizədi, milli ziyalılarımızın yüksək mənəvi-əxlaqi dəyərlərini özündə toplayan, Bakı ali məktəblərindən birinin müəllimi Kərim Əsgəroğludur. Müəllif onun şəxsində Azərbaycan ziyalısının çağdaş faciəsini sərt təsvir edir və bununla qəhrəmanın faciəsinin arxasında duran dəhşətli gerçəkliyin real mənzərəsini yaradır. "Otel otağı"nın bu cür faciəli sonluğu təsadüfi deyil. Ona görə də əsəri yanğısız, həyəcansız, ürək ağrısız oxumaq qeyri-mümkündür. Məsələn, Kərim müəllimin xarakterini səciyyələndirən mühüm cəhətlər onu xalqın mənəvi zənginləşməsi, milli özünüdərki üçün elm aləmində təmənnasız çalışmasıdır. Lakin buna baxmayaraq o, maddi və mənəvi üzüntü içində yaşayır. Elə keçmiş sovet dönəmində də halal maaşı ilə ağır güzəran keçirən bu cəfakeş alim, vətəni azad və müstəqil olduqdan sonra daha pis günə qalır, ailəsinin dolanışığını təmin etmək üçün başqalarına dissertasiyalar yazır. Lakin ahıl yaşına çatmış Kərim müəllimin qızı ərə getməli və o, bir valideyn kimi övladına el adəti üzrə cehiz

vermәlidir. “Cehiz problemi” isә getdikcә müşkülә çevrilir. Bu zaman tale sanki Kәrim müәllimin üzünә gülmәyә başlayır. Türkiyәdәn elmi konfransa gәlәn universitet dekanı Behicә xanım Kәrim müәllimi oraya dәrs demәyә dәvәt edәcәyini vәd edir. Kәrim müәllim cehiz müşkülatının aradan qalxacağına sevinir. Lakin hәmyerlisi, hamının riyakar, danosçu vә iyrәnc bir şәxs kimi tanıdığı Çopur Cabbar işi pozur vә Kәrim müәllimin yerinә işә Cabbarın oğlu götürülür. İnsanların amansızlığı onsuz da xәstә vә halsız dolanan Kәrim müәllimin dәhşәtli, faciәvi ölümünü tezlәşdirir, pulsuz, parasız İstanbul küçәlәrini dolaşan “Otel otağı”nın qәhrәmanı şәhәrin kasıb, miskin otellәrindәn birindә – “әcәl otağı”nda can verir.

Kәrim müәllimin faciәli ölümü vә ölümündәn qabaqkı ağrılı düşüncәlәri ilә Anar bizә әsәrin başlıca ideyasını tәşkil edәn belә bir hәqiqәti aşılamaq istәyir ki, son illәrin keşmәkeşlәrindә, ağrılı, acılı mәhrumiyyәtlә dolu günlәrindә biz yalnız torpaqlarımızı, yurd yerlәrimizi itirmәdik, yalnız şәhidlәr dağını yaşamadıq; biz hәm dә xalqın әn dәyәrli, onun gәlәcәyi üçün әvәzsiz olan böyük insanlarından – qeyrәtli ziyalılarımızdan da itkilәr verdik vә bu itki başqa heç nә ilә müqayisә oluna bilmәz, çünki hәr şeyi qaytarmaq, haçansa yenidәn әldә etmәk mümkündürsә dә, nadir insanların, Vәtәn vә xalq naminә fәdailik edәn әsl ziyalıların yoxluğunu başqa heç nә ilә әvәz etmәk olmaz – nә indi, nә dә gәlәcәkdә. Bu vәziyyәtin özü hәm çәtin keçid dövrü, hәm dә keçid dövrünü torpaq, vәtәn bütövlüyü itkisi ilә yaşayan xalqın özü üçün ekzistensial situasiya gerçәklәşdirir, fәrdin taleyi, mahiyyәti, millәtin taleyi vә mahiyyәti ilә әlaqәlәndirilir.

Ekzistensializm sürrealizmlә çox yaxındır vә ondan bәzi elementlәr dә almışdır. Hәtta әsәrlәrdә qovuşuq halda da işlәnә bilәr. Lakin, cәrәyanın tipi elementlәrin dominantlığında özünü göstәrir. “Sürrealizmdә tәhtәlşüurun şüur üzәrindә üstünlüyü müdafiә olunur. Bәzәn mәntiqsiz, psixoloji proseslәr nәticәsindә tәhtәlşüur şüurla birlәşir” [3]. Bu baxımdan qürub çağı, qәhrәmanın bu mәqamda qәfildәn bir çox mәtlәblәri dәrk etmәsi Kәrim müәllimin vә bu tәbiәtdә, bu taledә olan ziyalının aqibәtindәn soraq verәn sürrealist element kimi әsәrә daxil olur.

Anarın 90-cı illәr yaradıcılığının dәyәrli örnәklәrindәn olan “Qırmızı limuzin” hekayәsinin mövzusunda da buna bәnzәr motivә rast gәlmәk olar. Lakin hekayәnin qәhrәmanı O “Vahimә”dәki Orucdan da, “Otel otağı”ndakı Kәrim Әsgәroğlundan da tәnha idi. Onun, heç ailәsi dә yox idi.

“Qırmızı limuzin” hekayәsi ilә Anar bizә bәlli gözlә görünәn gerçәkliyin hüdudlarını aşaraq irreal, mistik әlaqәlәrin, tәhtәl-şüurun hakim olduğu sferalara çıxdığını nümayiş etdirdi. Bu baxımdan hekayәnin mövzusu diqqәti cәlb edir. Burada tәqib olunan insan obrazı ilkin pillә kimi realist sıranı özlüyündә mәzmunlu edir. Hadisә vә tәfәrrüatlar şüuraltının özü barәdә düşünmәk üçün gerçәk plan rolunu oynayır. Mәsәlәn, tәkcә elә reallıqlardan qәhrәmanın yuxusuna qәdәr detallaşan “özünün olub özgәlәşmiş şәhәr” – özgәlәşmә motivini qeyd etmәk kifayәt edәr. Ekzistensializmin әsas tipoloji xüsusiyyәtlәrindәn biri dә özgәlәşmәyә müqavimәt, etirazdır. “Qırmızı limuzin” hekayәsinin gözәlliyi elә ondadır ki, müәllif oxucunu ilkin qatda – gerçәklәrlә kifayәt qәdәr duyumlandırıb, qәhrәmanın xarakterinin metaforik dәrinliyinә aparır. “…Elә bil yağış da buluddan yox, keçmişdәn yağırdı. Әbәdi itirdiyi, hәmişәlik qeyb etdiyi ötmüş günlәrdәn” [4, s.84]. Bu cür nostalji hisslәrә ekzistensialist әsәrlәrdә tez-tez tәsadüf olunur. “İnsanın özü ilә mövcudluğu arasında olan mücadilәdә sıxıntı, yalnızlıq, ümidsizlik kimi nostalji hisslәrin baş qaldırması yaranmış suallara cavab vermәyә kömәk edir” [3, s.44].

Hekayәdә modernist nәsrә xas bәzi simvolik detallar vardır. Mәsәlәn, “qırmızı maşın” obrazı ilә sovet dövrünә, yaxud limuzin nömrәsinin 19 – 91 detalı ilә 1991-ci ilә işarә kimi rәmzi mәnalar aramaq olar.

**ӘDӘBİYYAT**

1. İsmayılov F. Müasir Qәrb fәlsәfәsi, Bakı, Azәrnәşr, 1991.
2. Salmanov Ş. “Otel otağı”nda bir ömür, “Press-fakt” qәzeti, 30 yanvar 1997.

3. Mustafa Kurt. 1950 sonrası, Türk edebiyatında varoluşçu felsefeden etkilenen yazarların romanlarında yapı, tema ve anlatım, Dok.tezi, Ankara, 2007.
4. Anar. Otel otağı. Bakı, "Gənclik", 1995.

## EXISTENTIALISM IN ANAR'S WORKS

### SUMMARY

Since the 90's in the works by Anar there are examples of existential prose. In the works by Anar as "Hotel Room", "Panic" and "Red Limousine" we see the tragedy of those who suffered from the bitter consequences of the war. Anar in his works in his own way reflected the existential human model, with all its subtleties. In prose of Anar, the mind moves away from reality and turns into spheres where subconsciousness prevails. With the help of these works, the author created examples of exemplary prose against canonized form and style.

## ЭКЗИСТЕНЦИАЛИЗМ В ТВОРЧЕСТВО АНАРА

### РЕЗЮМЕ

С 90-х годов в работах писателя Анара есть примеры экзистенциальный прозы. В произведениях Анара «Гостиничный номер», «Паника» и «Красный лимузин» мы видим трагедию тех, кто пострадал от горьких последствий войны. Он в творчестве по-своему отразил экзистенциалъную человеческую модель, со всеми ее тонкостями. В прозе Анара ум отходит от реальности и превращается в сферы, образцовой прозы против канонизированной формы и стиля.